Aqrar Xidmətlər Agentliyi

# Üzümdə oidium
## *(Erysiphe necator)*



088-588
axa.gov.az

## Zərərverici haqqında

Yoluxmuş yarpaqların üst hissəsində əvvəlcə açıq rəngli ləkələr, sonra ağ unlu örtük, daha sonra boz kül rəngli ləkələr əmələ gəlir. Sonradan yarpağın aşağı hissəsi, saplaq, zoğlar və gilələr də bu rəngə boyanır.Oidium üçün rütubət əsas rol oynamır. Oidium xəstəliyinin ləkələri əl ilə silinir və xarakterik balıq iyi verir. Yoluxmuş yarpaqların kənarları içəriyə doğru qıvrılır, səthinin hamarlılığı və parlaqlılığı itir. Ümumiyyətlə, oidiuma yoluxmuş gilələr inkişafdan qalır, tamamilə quruyur.Oidiuma yoluxmuş gilələr tökülmür, ancaq partlayır, toxumların üzəri açılır. Yəqin ki, belə mənzərənin şahidi olmusunuz. Belə partlamış gilələr əlavə boz çürüməyə yoluxa bilir.

## Mübarizə tədbirləri

-aqrotexniki tədbirlərin böyük rolu vardır. Tənəklərin havalandırılmasına fikir vermək lazımdır. Yaşıl əməliyyatlar- artıq zoğların qoparılması, yaşıl zoğların bağlanması, yaşıl zoğların ucunun vurulması (avqust ayında) aparılmalıdır.

- səhər vaxtı küləksiz havada kükürd tozu və 1%-li kolloid kükürd tətbiq olunur. Təsiredici maddəsi Penconazole və Azoxystrobin olan preparatlardan istifadə edilməlidir.



**Sirayətlənmiş üzüm**